## Qətər – 2022




# Yenilməz mübarizə əzmi Mərakeşi xilas etmədi

**2022-ci il Dünya çempionatı həqiqətən öz möhtəşəm futbol qarşılaşmaları və sürprizləri, rekordları və sərgüzəştləri ilə tarixdə öz izini qoymaqda davam edir. Dekabrın 14-də "Əl Bayt Stadium"da keçirilən Fransa – Mərakeş yarımfinal matçı da öz möhtəşəmliyi ilə bu tarixin ən maraqlı səhifələrindən biri oldu.**

Planetin futbol azarkeşləri FİFA-nın reytinq cədvəlində top-onluqda olan turnirin 3 favoritini mundialdan kənarda qoyan Mərakeş millisinin Fransa ilə matçını çox böyük maraqla gözləyirdilər.

Dünyanın ikinci komandası olan Belçika qrup mərhələsində məhz Mərakeşə məğlub olandan sonra turnirdə bütün şansını heçə endirdi.Yeddinci olan İspaniya "atlas şirləri"nin qapısından bir top belə keçirə bilməyib, mundialı rüsvayçılıqla tərk etdi. Reytinqdə beşinci olan Portuqaliya da Mərakeş millisi ilə bacarmadı və məğlub olub Qətərdən getdi.

Buna qədər reytinqdə İran və Seneqal millilərindən sonra 22-ci pillədə yer alan Reqraqinin yetirmələri indi Dünya çempionatının dörd komandasından biri kimi mundialın əsas favoriti hesab edilən Fransa komandası ilə qarşılaşırdı. Böyük qələbə istəyi və yeni tarix yazmaq məramı ilə meydana atılan "atlas şirləri" ilk dəqiqələrdən Fransanın sürətli hücumlarını dəf etməyə çalışsalar da, hücuma meyilli sol kənar müdafiəçisi Teo Ernandesin gözlənilməz vəziyyətdən çox erkən vurduğu qolla bir neçə dəqiqəlik özünü itirdi. Bəli, məhz Teo Ernandes yarımfinalda mərakeşliləri məğlubiyyətdən qurtarmaq üçün hücuma atılmağa məcbur etdi. Bu qol, Valid Reqraqinin yetirmələrinin mundialdakı 500 dəqiqəlik oyundan sonra rəqib komandanın futbolçusunun zərbəsindən sonra qapılarında gördüyü ilk qol oldu. Amma mundialı öz sürpriz komandası ilə rəngarəng edən mərakeşli mütəxəssis bunu heç gözləmirdi.

Komandanın taktiki sxemindən göründü ki, Valid Reqraqi öz həmkarı Didye Deşama sürpriz etmək qərarına gəlib. Futbol leksikonu ilə desək, mərakeşlilər qoşqulu avtobusla meydana çıxmışdılar: mütəxəssis dörd müdafiəçi taktiki düzülüşündən 5–4–1 sxeminə keçmişdi. Oyun başlayandan dərhal sonra 3 dayaq müdafiəçisi topu ələ keçirib öz meydanlarında bir-birinə ötürməklə tempi aşağı salmağa çalışdılar. Məqsəd bu idi ki, fransızlar yüksək pressinq tətbiq edib arxa mövqelərdə boşluqlara yer versinlər. "Xoruzlar" isə yüksək sürətə keçmir, mərakeşliləri öz meydanlarında qarşılayıb, sürətli əks-hücumlar yaratmaq fikrində idilər. Maraqlı idi ki, 4–2–3–1 sxemi ilə oynayan fransız komandasında Osman Dembele bəzən tam müdafiə xəttinə qədər geri çəkilirdi. Yeganə mərkəz hücumçusu Olivye Jiru belə çox vaxt dayaq yarımmüdafiəçisi rolunda çıxış edirdi. Bircə Kilian Mbappe öz fəaliyyətində sərbəst idi. Hamı Deşamın tapşırıqlarını çox ciddi şəkildə yerinə yetirirdilər.

Mərakeşlilərin üç dayaq müdafiəçisi ilə çıxış etmələri bu oyunda onların özləri üçün çox pis nəticələndi. Çünki fransızların arxasında hücuma atılan oyunçularla müdafiəçilər bəzən bir-birilərini başa düşmür və bu da top itkisinə səbəb olurdu. Teo Ernandesin erkən qoluna əsas səbəb də mərakeşlilərin sol mərkəz müdafiəçisi Cavad Əl-Yamikin mövqe səhvi üzündən baş verdi. O, 5-ci dəqiqədə Rafael Varanın Antuan Qrizmana uzaq məsafədən verdiyi əla ötürməni qabaqlamaq istəyərkən büdrədi və qapı qarşısında yaranan qarışıqlıqdan sonra top Teo Ernandesin qarşısına düşdü. Fransız müdafiəçi isə Bononu bağışlamadı - 1–0 Fransa irəli keçdi.

Millinin kapitanı Romen Sessini zədəsi səbəbindən əvəzləyəndən sonra Reqraqi komandanı 4–3–3 sxeminə qaytardı. Bundan sonra mərakeşlilər sanki öz oyunlarını tapdılar və sürətli hücumlar təşkil etmək və kombinasiyalar qurmaqla rəqibi gərginlikdə saxlamağı bacardıqlarını göstərməyə başladılar. Oyunun ən yaxşılarından olan Sofiyan Bofal gah sol, gah sağ cinahda fransızlara ciddi problemlər yaradırdı. Bir məqamda hətta rəqibin cərimə meydançasında Teo Ernandeslə toqquşandan sonra hakim mərakeşliyə sarı vərəqə göstərsə də, təkrarda əksinə, fransız futbolçunun qaydanı pozduğu açıq görünürdü. Mərakeşlilərin etirazına baxmayaraq, meksikalı hakim qərarını dəyişmədi. Birinci hissədə qapıya vurulan zərbələrin sayında fransızlar 5–9 irəlidə olsalar da, mərakeşlilərin cavab topu vurmaq şansları oldu.

Əl Yamik matçın gərgin anlarında DÇ-2022-nin ən baxımlı qolunu vurub komandasını xilas etməyə yaxın oldu. Ancaq mərakeşli oyunçunun da, komandasının da bəxti gətirmədi və onun aşırma zərbə ilə vurduğu top qapı dirəyinə dəydi. Etiraf edək ki, fransızların da ən yaxşı bombardirləri Olivye Jiru ilə növbəti qolu vurmaq imkanı yarandı. Lakin qapıçı Bono ilə təkbətək çıxan forvard topu çərçivədən kənara vurdu. Mbappe də bir supermeqamı əldən verdi.

İkinci hissədə mərakeşlilər meydanda əsil mübarizə əzmi nümayiş etdirib dünyaya göstərdilər ki, onlar 11 nəfərlə müdafiə olunmağı da, hücum etməyi də ən yaxşı formada bacarırlar. Əvvəldə qeyd etdiyimiz "avtobus" deyimi ilə nə qədər desən zarafat etmək olar, lakin əslində həqiqətdə Reqraqinin çox mürəkkəb və maraqlı mexanizmi olduqca xoş təsir bağışlayırdı. İkinci hissənin əksər vaxtı mərakeşlilərin cinahlardan, xüsusilə Əşraf Hakiminin və Ziyeşin oynadığı sağ cinahdan təşkil etdikləri hücumları fransızları demək olar bütün komanda ilə müdafiə olunmağa məcbur edirdi. "Atlas şirləri" bu hissədə topa sahibolmada 72 faiz üstün oldular. Etiraf edək ki, bu mundialda nə İngiltərə, nə də hansısa başqa komanda hazırkı Dünya çempionlarını qapılarına belə sıxışdırmağa müvəffəq olub. Burda bir fikri də söyləyim ki, Reqraqinin yetirmələrinin ikinci hissədə nümayiş etdirdikləri oyun qarşısında Fransa millisinin ehtiyatlı müdafiə oyunu bəzən adamda elə təəssürat oyadırdı ki, Mərakeş daha baxımlı və açıq futbol oynayır.






Mərakeşli məşqçi yüksək tempi saxlamaq üçün əvəzləmələrlə davam etdirir və dəstəklədi. Lakin hiyləgər Deşamın yerdəyişmələri daha səmərəli oldu. Jirunu əvəz etməklə çoxunu təccübləndirsə də, əslində, mütəxəssis müdafiəyə təyziqi zəiflətdi. Düşəmın kənardan oyunçulara söylədikləri məsləhətlərdən sonra komanda daha çox vaxt öldürmək üçün öz meydanında çoxlu ötürmələr edirdi. Kilian Mbappe isə mərkəz hücumçusu mövqeyinə keçmişdi. Oyuna yenicə çıxan Randal Kolo Muani isə topa ilk toxunuşunda qol vurdu. Qola səbəb olan bu hücum mərkəzdə fransızların topu ələ keçirib onu dərhal Mbappeyə ötürmələri ilə başladı. Kilian son ana qədər istəyirdi ki, özü qol vursun, lakin mümkün olmadığını görəndə Kolo Muana ötürmə etdi. Beləliklə, 79-cu dəqiqədə Fransa Mərakeşlə qarşılaşmada hesabı 2–0-a çatdırdı. Oyun bu hesabla da başa çatdı. Fransa qalib gəlsə də, bu, ona asan başa gəlmədi. Mərakeş qapıya vurulan zərbələrin sayına görə demək olar ki, fransızlardan geri qalmadı – 13-14. Çərçivəyə zərbələrin sayında isə 3–3 bərabərlik qeydə alındı. Amma təəssüf ki, qələbəyə layiq oyun nümayiş etdirən Mərakeş qol vura bilmədi.

Bu, Fransa millisinin son dörd böyük turnirdə üçüncü finalıdır. Buna qədər "xoruzlar" Avro-2016 və DÇ-2018-də final oyununa çıxıblar. Fransa ümumiyyətlə, uzun müddətdir ki, üstünlüyü əldən vermir. İştirakçıların sayının 32 komandaya çatdırılmasından sonra heç bir komanda Fransa millisi qədər – 4 dəfə Dünya çempionatının finalında oynamayıb. Bu, 24 il ərzində mütləq liderlikdir.

Baxımlı oyunu ilə azarkeşlərin rəğbətini qazanan Mərakeş finala çıxa bilməsə də, qrup mərhələsində heç-heçə oynadığı Xorvatiya ilə turnirin üçüncü yeri uğrunda mübarizə aparacaq. Bu oyunun necə başa çatmasından asılı olmayaraq, bir fakt faktlığında qalır ki, Mərakeş yarımfinalda məğlub olsa da, qələbəyə layiq əzmkarlıq, intellekt və gözəl futbol nümayiş etdirdi.

İlqar Rüstəmov